**AZƏRBAYCAN MİLLİ EMLƏR AKADEMİYASININ PREZİDENTİ**

**THE PRESIDENT OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES**

AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 30
Telefon: (994 12) 492 35 29, Faks: (994 12) 492 56 99
E-mail: president@science.az

AZ 1001, Baku, Istiglaliyyat st., 30
Phone: (994 12) 492 35 29, Fax: (994 12) 492 56 99
E-mail: president@science.az

№ 8-1/2-131/2023 "25" 01 2023 il/y.

AMEA-nın elmi bölmələrinin rəhbərlərinə

Bakı şəhərində 4-6 oktyabr 2023-cü il tarixlərində 74-cü Beynəlxalq Astronavtika Konqresi keçiriləcəkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "74-cü Beynəlxalq Astronavtika Konqresinin 2023-cü ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" 7 fevral 2022-ci il tarixli Sərəncam imzalamışdır. Sərəncama əsasən, tədbirin yüksək səviyyədə keçirilməsi üçün Təşkilat Komitəsi yaradılmış, AMEA-nın prezidenti Təşkilat Komitəsinin əsas üzvlərindən biri müəyyən edilmişdir.

Dünya miqyasında ən mötəbər tədbirlərdən olan Beynəlxalq Konqresin Azərbaycanda keçirilməsinin ölkəmizdə kosmik sənayenin inkişafına, beynəlxalq kosmik icma və onu təmsil edən Beynəlxalq Astronavtika Federasiyası ilə əməkdaşlığın genişləndirilməsinə əvəzolunmaz imkanlar yaradacağını nəzərə alaraq, Azərbaycan alimlərinin bu tədbirdə yaxından iştirakı tövsiyə olunur.

74-cü Beynəlxalq Astronavtika Konqresində iştlrak etmək üçün rəhbərlik etdiyiniz bölmənin, həmçinin elmi müəssisə və təşkilatlarının əməkdaşları aşağıdakı linkə daxil olaraq müvafiq məlumatları əldə edə bilər, müəyyən edilmiş mövzu və tələblərə uyğun tərtib edilmiş tezis və məqalələri göndərə bilərlər:

*https://www.iac2023.org/*

Bölmənin və elmi müəssisə və təşkilatlarının əməkdaşlarının Beynəlxalq Konqresdə iştirakı ilə bağlı məlumatları AMEA-nın Akademik-katibin xidmətinə (əlaqələndirici şəxs: Nuray Nurizadə, tel.: 492-64-55, e-mail: nuray.n93@mail.ru) təqdim edilməsini Sizdən xahiş edirik.

Qoşma: 1 səh.

Hörmətlə,

akademik İsa Həbibbəyli

8-1-2/1-131/2023

Beynəlxalq Astronavtika Konqresi çərçivəsində keçiriləcək kosmosun imkanlarına həsr olunmuş 180 texniki sessiya və digər tədbirlərdə iştirak etmək imkanını əldə etmək, beynəlxalq elmi cəmiyyət arasında tədqiqatınızın nəticələrini tanıtmaq üçün elmi işlərinizi təqdim etməyə dəvət edirik.

## Əsas tədqiqat sahələri və istiqamətlər:

- Elm və tədqiqat
- Tətbiqlər və əməliyyatlar
- Texnologiya
- İnfrastruktur
- Kosmos və cəmiyyət
- Kosmik sahədə innovasiyalar

## Kim iştirak edə bilər:

- Kosmos elminə marağı olan hər bir şəxs
- Əyani proqramla tədris alan tələbələr
- Gənc mütəxəssislər
- Orta ixtisas və ya ali məktəb müəllimləri
- Təqaüddə olan alim, professor və müəllimlər

**28 fevral 2023** Elmi məqalənin xülasəsini Beynəlxalq Astronavtika
qeydiyyatdan keçirmək və Azərkosmosa bu barədə